Azərbaycan Respublikası Təhsil Nazirliyi
Azərbaycan Müəllimlər İnstitutu

Nəzərov Akif Məmmədağa oğlu

# Məktəbəqədər müəssisələrdə tərbiyə və təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi fənni üzrə

## Proqram

Bakı-2015

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Müəllimlər İnstitutu**

**Nəzərov Akif Məmmədağa oğlu**

# Məktəbəqədər müəssisələrdə tərbiyə və təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi fənni üzrə

Azf-282 714

## Proqram

**Proqram Azərbaycan Müəllimlər İnstitutu "Pedaqogika" kafedrasının 11 aprel 2014-cü il tarixli 16 № li protokolunun qərarına əsasən çapa məsləhət görülmüşdür**

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

**Bakı-2015**

**Proqram AMİ-nın Pedaqogika kafedrasında hazırlanmışdır**

**Tərtib edən:** **Nəzərov Akif Məmmədağa oğlu**
Filologiya üzrə fəlsəfə doktoru, dosent,
Əməkdar müəllim

**Elmi redaktor:** **Hüseynzadə Rüfət Lətif oğlu**
Pedaqogika üzrə elmlər doktoru,
professor, Əməkdar müəllim

**Rəyçilər:** **Abbasov Akif Nurağa oğlu**
Pedaqogika üzrə elmlər doktoru,
professor, Əməkdar Müəllim.

**Həsənov Mircəfər Mirməsi oğlu**
professor, Əməkdar Müəllim.

**Bədəlova Əsmər Sadıq qızı**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent.

Tərbiyə işinin demokratikləşdirilməsi və humanistləşdirilməsi bağçanın yeniləşdirilməsində mühüm bir istiqamətdir. Tərbiyə işində demokratik prinsiplərə əməl olunması, humanizmin gözlənilməsi tərbiyəçinin fəaliyyətini son dərəcə səmərəli və mənalı edir.

Dərs vəsaitində məhz bu mühüm və aktual məsələlər Təhsil haqqında Qanunun tələbləri səviyyəsində işlənmiş və tədqiq olunmuşdur.

Dərs vəsaiti pedaqoji təmayüllü bakalavr təhsilli ali məktəb tələbələri və orta ixtisas məktəbinin tələbələri üçün nəzərdə tutulmuşdur. Eləcə də dərs vəsaitindən magistrlər, müəllimlər, məktəbəqədər tərbiyə müəssisələrinin müdirləri, metodistləri və tərbiyəçiləri faydalana bilərlər.



## İzahat vərəqi

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamını təhsilimizin inkişafında yeni mərhələnin başlanğıcı hesab etmək olar. Bu mühüm dövlət sənədində məktəbəqədər təhsilin inkişafına xüsusi diqqət yetirilmişdir.

Strategiyanın məqsədi ölkədə səriştəli təhsil verənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemi yaratmaqdır. Strategiyada göstərilir:

"Azərbaycanın təhsil sistemi iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olmalıdır". Strategiyanın həyata keçirilməsi üzrə fəaliyyət planının Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunması bütün təhsil müəssisələri qarşısında təhsilin yeniləşdirilməsinin uğurlu həllində əsas rol oynayır.

Bu mənada "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda erkən yaşından uşağın zehninin inkişaf etdirilməsi məsələsi ön plana çəkilir. Orada deyilir: "Təməl bacarıqları uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Həmin səbəblərdən təhsilin keyfiyyətinin təminatı başlıca strateji prioritetə çevrilməlidir".

Məhz bu baxımdan məktəbəqədər müəssisələrdə təhsilin inkişafı üzrə Dövlət Strategiyasının tələblərinə uyğun tərbiyə və təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi kursu üzrə hazırlanan proqram məktəbəqədər təhsilin pedaqogika və metodikası ixtisası üzrə bakalavr təhsili alan tələbələr üçün nəzərdə tutulmuşdur. Həmçinin, proqramdan magistrlər, pedaqoji təmayüllü orta-ixtisas məktəbinin tələbələri, müəllimləri və məktəbəqədər tərbiyə müəssisələrinin müdirləri, metodistləri, tərbiyəçiləri faydalana bilərlər.

Lakin istisna olaraq, konkret bir mövzuya və ya böyük bir mövzunun ehtiyac olarsa bir və ya iki yerə ayrılaraq ona müəyyən saatlar artırmaq, mühazirə və seminar saatlarını müəyyənləşdirmək olar ki, bu işdə müvafiq kafedralara sərbəstlik verilir.

| Mövzular | | | | |
|---|---|---|---|---|
| 1 | Məktəbəqədər müəssisələrdə tərbiyə və təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsinin mahiyyəti | | | |
| 2 | Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsində müəllim və uşaq bağçası tərbiyəçisinin rolu | | | |
| 3 | Müəllim və uşaq bağçası tərbiyəçisinin fərdi keyfiyyətlərinin təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsinə müsbət təsiri | | | |
| 4 | Pedaqoji mərifət və pedaqoji takt uşaqlara humanist münasibətlərin göstəricisi kimi | | | |
| 5 | Məktəbəqədər müəssisənin işinin planlaşdırılmasında humanizm və demokratizm prinsiplərinin nəzərə alınması | | | |
| 6 | Məktəbəqədər yaşlı uşaqların humanizm və demokratizm ruhunda tərbiyə olunmasında tərbiyəçinin və metodistin vəzifələri | | | |
| 7 | Məktəbə hazırlıq qrupu uşaqlarının humanizm tərbiyəsinin məqsəd və məzmunu | | | |
| 8 | Məktəbəqədər yaşlı uşaqların hu- | | | |



| | | | | |
|---|---|---|---|---|
| | manizm tərbiyəsində Vətənə sədaqət və milli orduya məhəbbət hissinin aşılanması məsələləri | | | |
| 9 | Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi və təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsində milli həmrəylik və sülhsevərlik ruhunda tərbiyə etmənin vacibliyi | | | |
| 10 | Məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin humanistləşdirilməsi və demokratikləşdirilməsində insanpərvərlik ruhunda tərbiyə olunmanın əhəmiyyəti | | | |
| 11 | Məktəbəqədər müəssisələrdə ana dili məşğələlərində humanizm tərbiyəsinin aşılanmasında tərbiyəçinin vəzifələri | | | |
| 12 | Ədəb-ərkanlıq ruhunda tərbiyənin məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsinin humanizm və demokratik prinsiplər əsasında qurulmasına təsiri | | | |
| 13 | Təbiətsevərliyin məktəbəqədər yaşlı uşaqlarda humanizm əhval-ruhiyyəsini formalaşdırması | | | |
| 14 | Məktəbəqədər yaşlı uşaqlarda humanistləşdirmə və demokratikləşdirmə əhval-ruhiyyəsinin formalaşdırılmasında ətraf aləmlə tanışlığın əhəmiyyəti | | | |
| 15 | Mədəni davranış və intizamlılığın bağça yaşlı uşaqların humanizm və demokratizm ruhunda tərbiyəsində rolu. | | | |

## Məktəbəqədər müəssisələrdə tərbiyə və təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsinin mahiyyəti

Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsinin Azərbaycan Respublikasının Təhsil Qanununda təsbit olunması.

Humanistləşdirilməsinin mahiyyəti və məzmunu.

"Əməkdaşlıq pedaqogikası"nın bütövlükdə məktəbəqədər müəssisələrdə humanistləşdirilmənin əsasını təşkil etməsi.

Humanistləşdirmə mənəvi dəyərlər, əxlaqi-etik normalar kimi tərbiyəçinin uşaqlarla münasibətinin tərkib hissəsi və tənzimləyicisi kimi. Hazırki şəraitdə təhsilin humanistləşdirilməsi prinsipinin əsasında dövlətin təhsil üzərində monopoliyasının ləğv olunması, təhsilin idarə olunmasında təlim sərbəstliyi və s. kimi həlli vacib olan təxirəsalınmaz vəzifələrin durması.

İnsanın tərbiyəsi məsələsi zaman-zaman bu və ya digər şəkildə vacib bir problem kimi həmin işlə məşğul olanları ciddi şəkildə düşündürməsi. İbtidai icma quruluşu dövründən başlayaraq, sonralar ictimai-iqtisadi formasiyalar yeniləşdikcə, münasibətlərdə də köklü dəyişikliklərin baş verməsi.

Böyük yunan filosoflarından Pıaton, Sokrat və Aristotelin bu vacib məsələni çox əhəmiyyətli iş hesab etmələri, onların Şəxsiyyətin hərtərəfli inkişafını tərbiyənin başlıca məqsədi kimi qiymətləndirmələri.

Demokrit isə göstərirdi ki, tərbiyə və təhsil insanın ağlını inkişaf etdirir, xoşbəxtliyə aparır, bədbəxtlik üz verəndə isə təsəlli tapmağa kömək edir.

Hələ XII əsrdə Ə.Xaqani, N.Gəncəvi kimi dahilərin təlim və tərbiyəni insanın təkmilləşdirilməsi üçün gözəl vasitə olduğunudönə-dönə qeyd etmələri.

Elmi-nəzəri pedaqogikanın banisi Yan Amos Komenskinin (1592-1670) təlimində insanlıq tərbiyəsinin əsas yer



tutması. Böyük alimin "Məktəbi humanizm beşiyi", "İnsanlıq tərbiyəçisi" fikrini irəli sürməsi.

"İnsanlıq tərbiyəsi"ndə Y.A.Komenskinin aşağıdakı ünsürləri əsas götürülməsi.

- Humanizm və demokratizm tərbiyəsi
- Vətənpərvərlik, ümumbəşəri hisslər tərbiyəsi
- Əməksevərlik tərbiyəsi
- Düzlük və doğruçuluq tərbiyəsi

Təhsilin humanistləşdirilməsi dedikdə pedaqoji qüvvə və mühit vasitəsilə bağça yaşlı uşaqlara humanist hisslərin, keyfiyyətlərin aşılanmasının başa düşülməsi

Tərbiyə işinin demokratikləşdirilməsinin bağçanın yeniləşdirilməsində mühüm bir istiqamət təşkil etməsi. Tərbiyə işində demokratik prinsiplərə əməl olunmasının tərbiyəçinin fəaliyyətinin son dərəcə səmərəli və mənalı etməsinə səbəb olması.

Uşaq-valideyn münasibətində demokratiya, xoş mənalı münasibət və ünsiyyətin başlıca yer tutması. Təlim-tərbiyə işinin demokratikləşdirilməsində insanın, onun problemlərinin, ehtiyaclarının ön plana çəkilməsi. Demokratikləşdirmənin bağçanı dövlət müəssisəliyindən çıxarması, dövlət sifarişindən azad etməsi. Bağçanın hər bir uşağın mənəvi inkişafına xidmət etməsi. Tərbiyəçi müəllimin bağçada özünü dövlətin inhisarçısı kimi deyil, daha çox xalqın müvəkkili kimi hiss etməsi təhsilin humanistləşdirmə və demokratikləşdirməsinin məktəbəqədər tərbiyə müəssisələrində bir neçə istiqamətdə özünügöstərməsi.

## Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsində müəllim və uşaq bağçası tərbiyəçisinin rolu

Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi tərbiyəçinin konstruktiv, kommunikativ, qnostik və təşkilatçılıq bacarıqları. Uşaq bağçası tərbiyəçisinin Vətənin sabahı üçün ləyaqətli vətəndaşlar hazırlanması.

Dahi Çex pedaqoqu Komenskinin sinifdə dərs deyən müəllimi şua saçan günəşə bənzətmişdir: "Günəş öz şüası ilə təbiətə canlı həyat verdiyi kimi, müəllim də saçdığı bilik şüası ilə gənc nəsli həyata hazırlayır".

Müəllimlik və uşaq bağçasındakı tərbiyəçilik peşəsinin məzmununa görə aşağıdakıları əhatə etməsi:

- Müəllim və uşaq bağçası tərbiyəçisinə verilən ictimai-siyasi tələblər
- Sosial-psixoloji, şəxsi və etik-pedaqoji tələblər
- Müəllim və uşaq bağçası tərbiyəçilərinin pedaqoji-psixoloji, ixtisas və metodik hazırlığı

Uşaq bağçası tərbiyəçisinin uşağın fizikivə psixi bacarığına, hər bir uşağın yaşını və fərdi xüsusiyyətlərini nəzərə almaqla emosional və hərtərəfli inkişafına, təlim tərbiyəsinin səmərəliyinin optimal şəkildə həyata keçirilməsi üçün məsuliyyət daşıması.

Məktəbdə, eləcə də uşaq bağçasında tərbiyə və təlim işinin bütün müvəffəqiyyət və nöqsanlarının müəllim-tərbiyəçi işinin nəticəsi kimi qiymətləndirilməsi.

Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsində tərbiyəçinin sosial rolunun böyüklüyü. Kollektivdə tutduğu mövqeyindən asılı olaraq şəxsiyyətin mənəvi keyfiyyətlərinin formalaşması. Uşaq kollektivində onun hər bir üzvünün bacarıq və qabiliyyətinin inkişaf etməsi və həmin bacarıq və qabiliyyətlərindən kollektivin xeyrinə istifadə olunması. Kollektiv fəaliyyət növündə (təlim, əmək, oyun) iştirak edən uşaqların keçirdikləri hissləri daha dərindən dərk etmələri, kimin necə yoldaş, dost olduğunu, əməyə, adamlara necə münasibət bəslədiklərini, ictimai həyat hadisələrini necə qiymətləndirildiklərini öyrənmələri. Kollektiv fəaliyyət dövründə uşaqlarda vətəndaşlıq şüuru və əqidənin formalaşdırılması. Həm də uşaq kollektivində uşaqlar arasında demokratik əhval-ruhiyyə, eləcə də humanist keyfiyyətlərin formalaşdırılması. Humanist adamın həssas və qayğıkeş olması. İrqindən və



milliyyətindən asılı olmayaraq bütün xalqların zəhmətkeşlərinə hörmət bəsləməsi. Uşaqların tərbiyəçilərə - müəllimlərə hörmət bəsləməli, onlara dərin ehtiram göstərməklə heç vaxt incitməyə çalışmamalı.

Peşə insanın fəaliyyət sahəsində işləyə bilməsi üçün zəruri olan keyfiyyətləri (bilik, bacarıq, vərdiş, təcrübə, qabiliyyət və s.) özündə əks etdirməsi.

## Müəllim və uşaq bağçası tərbiyəçisinin fərdi keyfiyyətlərinin təhsilinhumanistləşdirilməsi və demokratikləşdirilməsinə müsbət təsiri

Hörmət və tələbkarlığın pedaqoji inam hissini gücləndirməsi. Təlim-tərbiyə işində emosionallığın humanistləşdirilmədə əhəmiyyəti. Ölkəmizdə dövlət tərəfindən müəllim və tərbiyəçiyə humanist münasibətin göstərilməsi.

Təhsilin demokratikləşdirilməsi dedikdə nə başa düşülür?

Pedaqoji qabiliyyətlərin humanistləşdirilmə və demokratikləşdirmənin keyfiyyətinə müsbət təsir göstərməsi. Humanizm tərbiyəsində Komenskinin əsas götürdüyü cəhətlər. Müəllim və uşaq bağçası tərbiyəçisinin aşağıdakı fərdi xüsusiyyətlərə malik olması:

- Müəllim və tərbiyəçilər dərin elmi, siyasi və pedaqoji biliyə yiyələnməli, sistematik əqidəyə malik olmalıdır
- Müəllim və tərbiyəçi özünü şagirdlərində, tərbiyə etdiyi uşaqlarda təkrar edir və yaşadır. Bu bir daha sübut edir ki, müəllim və tərbiyəçi pedaqoji prosesdə şərəfli sima, aparıcı qüvvədir
- Müəllim, eləcə də uşaq bağçası tərbiyəçisi öz üzərində müntəzəm çalışmalı, nöqsanlarını görməli və onları tədricən aradan qaldırmağı bacarmalıdır
- Ancaq bilik vermək pedaqoji fəaliyyətdə kifayət etmir. Müəllim və uşaq bağçası tərbiyəçisi uşaqları sevməlidir. Bu sevgi onların ağır əməyini yüngülləşdirir. Bu

məqsədlə müəllim və tərbiyəçi uşaq şəxsiyyətinə hörməti güzəştsiz pedaqoji tələbkarlıqla əlaqələndirməlidir. Hörmət və tələbkarlıq pedaqoqun hissini gücləndirir, onu mənən varisə çevirir

Uşaq aləminin hərtərəfli öyrənilməsi, tərbiyə metodunu seçərkən tələsməməsi, uşaqların fərdi xüsusiyyətlərinə uyğun olaraq yollar axtarıb tapması tərbiyəçinin yüksək pedaqoji bacarığına, məharətinə dəlalət etməsi

Ölkəmizdə müəllim və tərbiyəçi ixtisası üzrə kadr hazırlığına xüsusi diqqətin yetirilməsi. Respublikamızın müəllimlərinin digər sahədə çalışan ziyalılardan daha çox üstünlük təşkil etməsi

**Pedaqoji mərifət və pedaqoji takt uşaqlara humanist münasibətlərin göstəricisi kimi**

Pedaqoji mərifətə yiyələnmək tərbiyəçinin başlıca humanist keyfiyyətlərindən biri kimi.

Hər bir uşağın imkanlarının (qüvvətli və zəif cəhətlərinin) tərbiyəçi tərəfindən düzgün qiymətləndirilməsi.

Tərbiyəçinin pedaqoji mərifətinin onun ümumi əxlaqi keyfiyyətlərindən, uşaqlarla ünsiyyət zamanı pedaqoji etika qanunlarının nəzərə alınmasından çox asılılığı. Bilik və bacarığın tərbiyəçinin pedaqoji ustalığında mühüm rol oynaması. Pedaqoji ustalıqda istifadə olunan pedaqoji taktlar.

Pedaqoji mərifətə malik olmaq nə deməkdir. Bu cür qabiliyyət tərbiyəçinin öz uşaqlarının yaş və fərdi ünsiyyətlərini və konkret şəraiti nəzərə alaraq daha məqsədəuyğun təsir üsulundan istifadəni müəyyənləşdirə bilməsində təzahür etməsi. Müəllim və tərbiyəçinin pedaqoji mərifəti onun şagirdlərlə, uşaqlarla, onların valideynləri ilə, müəllim yoldaşları ilə düzgün münasibət saxlaya bilmək bacarığı və həddini aşmamasında özünü büruzə verməsi. Pedaqoji şəraitdə uşağa qarşı hörmət və tələbkarlığın bacarıqla birləşdirilməsi.



Görkəmli rus pedaqoqu K.D.Uşinski (1824-1870) demişdir: "Tərbiyəçi pedaqogikanın nəzəriyyəsini nə qədər yaxşı öyrənmiş olsa da, pedaqoji mərifəti olmayınca heç vaxt yaxşı müəllim – tərbiyəçi olmayacaqdır".

Tədqiqatçılar tərəfindən pedaqoji mərifətin aşağıdakı komponentlərinin müəyyənləşdirilməsi:

- Tərbiyəçinin uşaqlara qarşı məhəbbəti və məsuliyyəti
- Hər bir uşağın şəxsi ləyaqətinə hörmət göstərmək pedaqoji cəhətdən əsaslandırılmış tələbkarlığın əsası kimi
- İşgüzar və pedaqoji əlaqənin, inam və pedaqoji nəzarətin vəhdəti
- Sadəlik, təbiilik, səmimilik və xeyirxahlıq

Pedaqoji ustalıqda uşaqları intizarda qoymaq, risk etmək kimi metodlardan, pedaqoji taktlardan istifadə edilməsi. Pedaqoji takt pedaqoji ustalığın təsirli amili kimi. Takt – latın sözü olub, toxunmaq, təmasda olmaq, hisslərin ölçüsü, özünü təmkinli aparmağı bacarmaq mənasını verməsi. Pedaqoji taktın tədricən təşəkkül tapması. Uşağın, yeniyetmə və gəncin daxili aləminə müəllimin bələd olmasına, hər hansı pedaqoji təsirə şagirdin necə münasibət bəslədiyini əvvəlcədən görə bilmək bacarığına pedaqoji taktın demək olması. Pedaqoji taktın tərbiyəçilərlə məktəbəqədər yaşlı uşaqlar arasında səmimi münasibətin yaranmasına səbəb olması.

Pedaqoji ustalıq qabiliyyəti və taktın vəhdəti olub nəyi həll etmə ilə necə həll etmənin eyni vaxtda həyata keçirilməsinə səbəb olması.

Pedaqoji ustalıqda pedaqoji texnikanın rolunun böyüklüyü. Pedaqoji texnikanın pedaqoji prosesdə nailiyyətlər əldə etməyin zəruri şərti olması. Pedaqoji fəaliyyətdə hər bir müəllimin və tərbiyəçinin fərdi yaradıcılıq üslubunun da mühüm rol oynaması. Üslubun yaradıcı qabiliyyətin bu və ya digər pedaqoji vəzifənin yerinə yetirilməsinə yönəldilən fərdi xüsusiyyətlərin məcmusu hesab olunması. Müəllimlik peşəsində üç cür

üslubun müşahidə olunması: avtokratik, liberal, demokratik. Bu üslubların arasında demokratik üslubun mühüm yer tutması. Demokratik üslubda şagirdlərin, habelə məktəbəqədər tərbiyə müəssisələrində bağça uşaqlarının fərdi xüsusiyyətlərinin nəzərə alınması, məsələlərin kollektivin fəal iştirakı ilə müzakirə olunması, hər bir uşağa şəxsiyyət kimi baxılmasının önəmliyi.

### Məktəbəqədər müəssisənin işinin planlaşdırılmasında humanizm və demokratizm prinsiplərinin nəzərə alınması

Humanizm və demokratikləşdirmə baxımından planlaşdırmaya verilən tələblər.

Məktəbəqədər müəssisədə metodik iş kompleks şəkildə aparılan yaradıcı fəaliyyət kimi. Metodika kabinetinin işgüzar fəaliyyəti tərbiyəçilərdə humanist keyfiyyətlərin artırılmasına daha da şərait yaratması. Məktəbəqədər tərbiyə müəssisələrində həyata keçirilən tərbiyə-təlim işlərinin müvəffəqiyyətli həllinin müəssisə rəhbərlərinin humanist münasibətindən çox asılılığı.

İlkin plan məktəbəqədər uşaq tərbiyə müəssisəsi kollektivinin fəaliyyətini istiqamətləndirən və təşkil edən əsas sənəd kimi. Planın hər tədris ili üçün "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı", Azərbaycan Respublikası təhsil Nazirliyinin müəyyənləşdirdiyi metodik sənədləri əsasında hazırlanması.Planlaşdırmada təlim-tərbiyə işinin demokratikləşdirilməsi insan amili, onun problemləri, ehtiyaclarının ön plana çəkilməsi.

Demokratikləşdirmənin bir növ bağçanı dövlət sifarişlərindən azad etməsi. Valideynlərlə əlaqə saxlamaq, onlarla düzgün münasibətlər yaratmaq tərbiyəçinin, ümumiyyətlə məktəbəqədər tərbiyə müəssisəsinin əsas vəzifəsi hesab olunması. Planlaşdırmada tərbiyəçi - valideyn münasibətlərindəki səmimiliyə, hörmət və ehtirama xüsusi diqqət yetirilməsi.



Planlaşdırmanın ikinci hissəsində əsasən məktəbəqədər tərbiyə müəssisəsində humanistləşdirmə və demokratikləşdirmənin təşkilinə diqqət yetirilməsi.

Planlaşdırmaya verilən tələblərdə aşağıdakılara əməl edilməsi:

- Planlaşdırmanın uşaqlarla aparılan işin ideya istiqamətini müəyyənləşdirməsi.
- Təlim-tərbiyə işləri uşaqların yaşına və anlaq səviyyəsinə uyğun olaraq müstəqil Azərbaycan dövlətinin xarici və daxili siyasətinin məzmununu özündə əks etdirməsi
- Uşaq həyatının mahiyyəti, məzmunu, uşaqlarla aparılan tərbiyəvi işlərin metod və tərzlərinin onların hərtərəfli inkişafına xidmət etməsi
- Planlaşdırmada birinci növbədə uşaqların əxlaqi cəhətdən formalaşdırılması məsələləri nəzərdə tutulmalı, onun fəallığı, müstəqilliyi təmin edilməli, vətənpərvərlik, milli müstəqillik, humanizm və s. hisslərinin tərbiyəsinə xüsusi yer verilməli, uşaqların mədəni davranışqaydalarına yiyələnməsi məsələləri diqqət mərkəzində saxlamalı

### Məktəbəqədər yaşlı uşaqların humanizm və demokratizm ruhunda tərbiyəolunmasında tərbiyəçinin və metodistin vəzifələri

Məktəbəqədər tərbiyə müəssisəsində tədbirlərin həyata keçirilməsində metodistin mühüm rol oynaması.

Bağçada demokratizm və humanizm tərbiyəsində müstəqil-didaktik oyunların qruplaşdırılmasının əhəmiyyəti.

Məktəbəqədər müəssisədə metodik işin kompleks şəkildə aparılan fəaliyyət hesab olunması. Metodik işlərin həyata keçirilməsi dairəsinin genişliyi. Tərbiyəçilərin nəzəri və metodik səviyyəsinin aşağı düşməməsi üçün hər bir məktəbəqədər

tərbiyə müəssisəsində metodika kabinetinin fəaliyyətinin zəruriliyi.

Tərbiyəçinin pedaqoji hazırlığının yüksəldilməsi, onların yeni biliklərə fasiləsiz yiyələnmələri üçün metodika kabinetində şərait yaratmanın xüsusi əhəmiyyət kəsb etməsi. Burada aşağıdakı məsələlərin diqqət mərkəzində saxlanmasının vacibliyi – pedaqoji şuralar, nəzəri seminarlar, məsləhətlər, qabaqcıl təcrübənin öyrənilməsi, müxtəlif mövzularda tərtibatlar düzəltmək və nümayiş etdirmək, ayrı-ayrı qruplarda müəyyən mövzuda məşğələlər keçirtmək və təhlil etmək, məktəbəqədər tərbiyə müəssisəsi ilə ailənin, bağçasının məktəbin əlaqəsi mövzusunda məruzələr dinlənilməsini təşkil etmək və s.

Adları çəkilən tədbirlərin həyata keçirilməsi ilə əlaqədar ciddi hazırlıq işlərinin görülməsi. Bu işlərin təşkilində və həyata keçirilməsində metodistin mühüm rol oynaması.

Məktəbəqədər tərbiyə müəssisəsində müstəqil-didaktik oyunların metodika kabineti tərəfindən aşağıdakı şəkildə qruplaşdırılması:

- Kiçik süjetli musiqili didaktik oyunlar
- Musiqili hərəkətli oyunlar
- Musiqili didaktik oyunlar
- Musiqili əyləncəli oyunlar
- Müstəqil kütləvi musiqili oyunlar.

## Məktəbə hazırlıq qrupu uşaqlarının humanizm tərbiyəsinin məqsəd və məzmunu

Məktəbə hazırlıq qrupu uşaqlarının humanizm tərbiyəsinin əsas məqsəd və vəzifələrini müəyyənləşdirən amillər. Məktəbə hazırlıq qrupu uşaqlarının humanizm tərbiyəsində yaş xüsusiyyətlərinin nəzərə alınması.

Humanizm tərbiyəsində tərbiyəçilərin pedaqoji ustalığı və metodik hazırlığının mühüm əhəmiyyət kəsb etməsi.



Bağçada keçirilən oyun tədbirlərinin bağça uşaqlarının humanizm tərbiyəsində rolu.

Məktəbəqədər yaşlı uşaqların humanizm tərbiyəsinin məqsəd və məzmununun aşağıdakılardan ibarət olması: Dərin və hərtərəfli biliyə, bacarığa, praktik hazırlığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə, mütərəqqi dünyagörüşünə malik olan və onu daima inkişaf etdirməyə qadir vətəndaşlar yetişdirmək. Bu aktual məsələlərin uğurla həyata keçirilməsi hazırki qloballaşma şəraitində Azərbaycan Respublikasının təhsil sistemi qarşısında başlıca vəzifə kimi durması.

Yuxarıda qeyd etdiyimiz yüksək mənəvi keyfiyyətlərin yetişməkdə olan gənc nəslə məktəbəqədər yaş dövründən başlayaraq və anlaq səviyyəsinə uyğun olaraq aşılanması və tədricən onun ahəngdar inkişafının təmin edilməsinin zəruriliyi.

## Məktəbəqədər yaşlı uşaqların humanizm tərbiyəsində Vətənə sədaqət və Milli orduya məhəbbət hissinin aşılanması məsələləri

Vətənə sədaqətin məktəbəqədər yaşlı uşaqların tərbiyəsində mühüm əhəmiyyət daşıması. Vətənpərvərliyin mahiyyəti ilə bağlı görkəmli şəxsiyyətlərin fikirlərindən istifadənin humanizm tərbiyəsindəki önəmli rolu

Vətənin qeyrətini çəkmək tərbiyəsini həyata keçirmək üçün yerinə yetirilsi zəruri sayılan vəzifələr.

Humanizm tərbiyəsində Vətənə sədaqətlilik nümunəsinin bir qolunu təşkil edən Milli orduya məhəbbət hisslərinin bağça yaşlı uşaqlara aşılanması ilə əlaqədar tərbiyəçilərin vəzifələri.

Vətənə sadiqlik tərbiyəsi mühüm bir mənəvi dəyər kimi həmişə xalqımızın qabaqcıl övladlarını düşündürməsi, Azərbaycanın maarifçi ziyalılarının, şair və yazıçılarının, mütəfəkkir övladlarının öz əsərlərində doğma yurdun gözəlliklərini sonsuz məhəbbətlə vəsf etmələri. Onların öz fəaliyyətlərində

daim “Vətən”, “Xalq”, “Ana” kəlmələrini ayrılmaz və müqəddəs anlayışlar kimi işlətmələri.

Ulu Öndərimiz Heydər Əliyevin yorulmaq bilmədən böyük səy və qətiyyətlə həyata keçirtdiyi Milli Müstəqillik siyasətinin mühüm komponentlərindən birini-Azərbaycan vətənpərvərliyi, hərbi vətənpərvərlik ideyalarınıön plana çəkməsinin səbəbi.

Vətənə məhəbbət, onu qorumaq və qeyrətini çəkmək tərbiyəsini həyata keçirmək üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsinin zəruriliyi:

- Uşaqlarda Vətən yolunda, onun gələcək inkişafı və tərəqqisi naminə hər cür zəhmətə və fədakarlığa hazır olmaq əzmi aşılamaq, onlarda Vətənə sədaqət və məhəbbəti sözdə deyil, əməli işdə nümayiş etdirmək inamını tərbiyə etmək
- Uşaqları müstəqil Azərbaycanda yaşayan müxtəlif xalqlar arasında milli həmrəylik, birlik, dostluq, qardaşlıq ruhunda tərbiyə etmək və onlarda Azərbaycançılıq hissi aşılamaq
- Uşaqlarda kiçik yaşdan milli iftixar, mərdlik, cəsurluq və milli qeyrət hisslərini möhkəmləndirmək
- Məktəbəqədər yaşlı uşaqları Milli orduya, erməni işğalçılarına qarşı müharibədə igidliklər göstərmiş Milli qəhrəmanlarla bu yolda şəhidlik zirvəsinə yüksəlmiş oğul və qızlarımızın ruhuna sonsuz ehtiram və məhəbbət hissi tərbiyə etmək

Məktəbəqədər yaşlı uşaqlarda Milli orduya məhəbbət tərbiyəsi əqli, əxlaqi, ideya-siyasi, fiziki və estetik tərbiyə ilə sıx əlaqədə aşılanmasına xüsusi diqqət yetirilməsi. Bu kimi tədbirlərin məktəbəqədər yaşlı uşaqların humanizm tərbiyəsinə müsbət təsir göstərməsi.



**Məktəbəqədər yaşlı uşaqların tərbiyə və təhsilinin humanistləşdirilməsi və demokratikləşdirilməsində milli həmrəylik və sülhsevərlik ruhunda tərbiyə etmənin vacibliyi**

Milli həmrəylik və sülhsevərliyin müxtəlif ölkələrdə yaşayan millətlər və xalqlar arasındakı münasibətlərixarakterizə etməsi.

Humanizm mövqeyində duran dünyanın mütərəqqi və sülhsevər xalqların ədalətsiz müharibələrə, qırğınlara həmişə nifrət etmələrinin səbəbi.

Tərbiyəçinin hələ bağça yaşlarından uşaqlarda ayıq-sayıq olmaq, ehtiyatlılıq, düşmən hiyləsinə aldanmamaq kimi keyfiyyətlərin formalaşmasına çalışması.

Uşaqların həmrəylik və xalqlar dostluğu ruhunda tərbiyəsinə yüksək səviyyədə diqqət yetirilməsinin vacibliyi.

Tərbiyəçinin bədii qiraət zamanı uşaqlar üçün şer və hekayələr seçərkən humanizm tərbiyəsi məsələlərinə xüsusi diqqət yetirməsi.

Dünyanın bütün mütərəqqi və sülhsevər xalqlarının başqalarının torpağına göz dikməyə, ədalətsiz müharibələrə, qırğınlara həmişə nifrət etmələri. Yetişən nəsli müntəzəm olaraq milli həmrəylik və vətənpərvərlik ruhunda tərbiyələndirmənin önəmliyi. Məktəbəqədər yaşlı uşaqların Vətəni qorumaq, onun keşiyində durmağın hər kəsin müqəddəs borcu olması barədə müəyyən təsəvvürlərə malik olması.

Tərbiyəçinin bədii qiraət zamanı uşaqlar üçün şer və hekayələr seçərkən bu məsələlərə xüsusi diqqət yetirməsinin zəruriliyi.

Tərbiyəçinin yeri gəldikcə İslam dininin mənəvi dəyərlərindən faydalanaraq uşaqların dini biliklərinin də inkişaf etdirilməsinə çalışması.

İslam dininin hər bir şəxsə yalnız öz millətini deyil, başqa millətləri də sevməyi, onların dilinə, dininə, adətlərinə hörmət etməyi məsləhət görməsi. İslam dininin bütün insanları

Azərbaycan Milli Kitabxanası

Az-282444

qardaşlığa, dostluğa çağırması. İslamda adamlar, millətlər arasında kinə, nifrətə yerin olmaması, onun yer üzündə bütün xalqlar arasında sülhün, əmin-amanlığın olmasına çalışması.

Vahid Azərbaycanın bütün vətəndaşlarının hamısının eyni hüquqlara malik olması. İndiyədək Azərbaycanda heç vaxt talış, tat, lahıc, ləzgi, türk və s. söhbətlərin olmaması. Həmin etnik qrupların və ya az saylı xalqların hamısının azərbaycanlı kimi, Azərbaycanın sədaqəti vətəndaşları kimi yüz illərlə Azərbaycanın vahid ailəsində yaşamaları, birləşmələrinin təmin edilməsi.

**Məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin humanistləşdirilməsi və demokratikləşdirilməsində insanpərvərlik ruhunda tərbiyə olunmasının əhəmiyyəti**

İnsanpərvərliyin müasir dövrdə məktəbəqədər yaşlı uşaqlara aşılanması vacib olan yüksək humanist keyfiyyətlərdən biri hesab olunması. Azərbaycan maarifçilərinin yetişən nəslin humanizm tərbiyəsinə müstəsna əhəmiyyət vermələri.

Bütün müsəlmanların müqəddəs kitabı "Qurani Kərim"də, eləcə də Məhəmməd Peyğəmbərin (ə.s) kəlamlarında humanizm və insanpərvərliklə əlaqədar yüksək fikirlərin söylənməsi.

İnsanpərvərliyin və humanizmin əlamətlərinin öncə ailədə, məktəbəqədər tərbiyə müəssisələrində yaranması.

Uşaq bağçasında uşaqların demokratizm və humanizm tərbiyəsində Azərbaycan uşaq ədəbiyyatından məharətlə istifadə olunmasının zəruriliyi.

İnsanpərvərliyin mənəvi baxımdan adamlar arasında münasibətin ən vacib təzahürformalarından biri olması. Uşağa, ailə üzvlərinə, qohum-qonşuya, başqa adamların, o cümlədən yaşlılara, böyüklərə, qadınlara, əlillərə, ümumən insanlara hörmət etmək, adamların ləyaqət və şərəfini yüksək qiymətləndirmək, onlara münasibətdə diqqətli, həssas və qayğıkeş olmağın və s. əsl insanpərvərlik nümunələri hesab olunması.



Qabaqcıl tərbiyəçilərin yaşlılara hörmət və qayğı göstərməyin, xeyirxah işlərlə məşğul olmağın faydasından maraqlı faktora istinad edərək söhbət açması və uşaqları qayğıkeş olmağa sövq etməsi.

Humanizm və insanpərvərliyin təkcə müəllim və tərbiyəçiləri deyil, bütün böyüklərin uşaqlara üzünü döndərməsi demək olması. Bunun uşaqların şəxsiyyətinə hörmət, ona inam və ehtiram göstərilməsi, arzu və maraqlarının nəzərə alınması demək olması.

**Məktəbəqədər müəssisələrdə ana dili məşğələlərində humanizm tərbiyəsinin aşılamasında tərbiyəçinin vəzifələri**

Ana dili dərslərində bədii ədəbiyyat nümunələrindən oxumaq və onun tərbiyəvi əhəmiyyətini uşaqlara başa salmaqda tərbiyəçinin rolu

Məktəbəqədər yaşlı uşaqlarda ana dili dərslərində humanizm tərbiyəsinin aşılanmasında istifadə olunan metodlar.

Bədii oxudan sonra müsahibələrin təşkili:

a) İlkin müsahibə;

b) Yekun və ya ümumiləşdirici müsahibə.

Kitab oxumağın uşaqların ətraf mühit haqqında biliyini zənginləşdirməsi.

Məktəbəqədər yaşlı uşaqlarda bədii ədəbiyyatı başa düşmək qabiliyyətini formalaşdırmaq. Onlarda əsərin qəhrəmanının hərəkətlərini duymaq qabiliyyətinin inkişaf etdirilməsi

Müsbət cəhətlərindən sevinməli, müvəffəqiyyətsizliklərindən kədərlənmək və s. kimihisslərin oyanması. Bunun üçün şəkillərdən istifadə etmək, əsər haqqında nəqletmə bacarığı, onun metodu (səhnələşdirilmiş oyun), söhbət və s.

Hisslərin oyadılması, oxudan sonra təşkil olunan müsahibədə onun məqsədininaydınlaşdırılması. Müsahibənin məqsədinin oxunmuş mətnin məzmunu və qayəsini daha aydın başa düşməyə kömək etməsi. Bu qaydada məşğələnin keçirilməsinin

həm uşaqların nitqinin inkişafına, həm də onların humanizm tərbiyəsində mühüm rola malik olması (Məsələn, igid ölər, adı qalar", "Şah İsmayıl Xətai, şair Xətai", "Şeyx Xiyabani", "Səttarxan-milli oyunu", eləcə də "Müstəqil Azərbaycanım-yurdum mənim" oyunu və s. Həmin ssenarilər əsasında bağça uşaqlarının tərbiyəçi müəllimin rəhbərliyi altında səhnəciklərə hazırlaşmağı və nəhayət, balaca səhnədə bacarıqlarını nümayiş etdirərkən onlarda inam hissinin yaranması. Bu kimi tədbirlərin həyata keçirilməsi uşaq kollektivində həm də demokratizm və humanizm əhval-ruhiyyəsinin yaranmasına səbəb olması.

Məktəbə hazırlıq qrupu uşaqlarının demokratizm və humanizm tərbiyəsinin məqsəd vəməzmunu müəyyənləşdirmək üçün müxtəlif elm sahələrinə tərbiyəçinin bələd olmasının zəruriliyi, uşaqların tərbiyəsində ətraf aləmi tanışlığın isə görüləcək işlərin həyata keçirilməsində müsbət rolu. Uşaqlarda nitq inkişafını formalaşdırmaq, onları mədəni davranışa alışdırmağın humanizm tərbiyəsində mühüm rolamalik olması. Tərbiyəçilərin bu məqsədlə ayrı-ayrı yazıçıların və şairlərin əsərlərindəki ən xarakterik nümunələrdən istifadə etmələrinə çalışmaları.

Tərbiyəçilərin müntəzəm olaraq, bağça uşaqlarının nitq mədəniyyətinin inkişafı qayğısınaqalması və hər bir uşağın ümumi mədəni səviyyəsinin yüksəldilməsi üçün daim səy göstərmələri. Burada tərbiyəçinin Nizaminin, Füzulinin, M.P.Vaqifin, Ş.İ.Xətainin, M.Şəhriyarın, S.Vurğunun, S.Rüstəmin, B.Vahabzadənin, M.Dilbazinin, İ.Tapdıqın və s. poetik nümunələrindən yararlana bilmələri.

### Ədəb-ərkanlıq ruhunda tərbiyənin məktəbəqədəryaşlı uşaqların təlim-tərbiyəsinin humanizm və demokratik prinsiplər əsasında qurulmasına təsiri

Ədəb-ərkanlıq, humanizm nə demokratizm insanın əxlaqi-kamillərinin mühüm komponenti kimi davranış mədə-



niyyətinin ümumbəşəri mənəvi dəyərlərin başlıca prinsipləri ilə müəyyən edilməsi.

Uşaq ədəbiyyatındakı mənəvi dəyərlərdən istifadənin məktəbəqədər yaşlı uşaqların ədəb-ərkanlıq, humanizm tərbiyəsində önəmliyi.

İnsanın əxlaqi kamilliyinin bu mühüm komponentinin onun ədəb-ərkanlı olmasında təzahür etməsi.

"Qurani-Kərim"də, etnopedaqoji materiallarda, xalqımızın mənəvi irsində, o cümlədən, ədəbi-bədii əsərlərdə ədəb-ərkanlığın çox vaxt əxlaqın sinonimi kimi dəqiymətləndirilməsi. Lakin əxlaq anlayışı daha geniş olub, ədəb-ərkanlığı da özündəeltiva etməsi. Pedaqoji ədəbiyyatda ədəb-ərkanlığın adətən "mədəni-davranış"termini ilə də adlandırılması. Nə cür adlandırılmasından asılı olmayaraq ədəb-ərkanlığın əxlaqın tərkib hissəsinə daxil olması. Əxlaq tərbiyəsinin ən vacib vəzifələrindən birinin uşaqlara məhz həmin keyfiyyətin dərindən aşılanmasından ibarət olması.

İnsanın ədəb-ərkanlığı onun qiymətli əxlaqı keyfiyyətlərindən biri kimi rəftar və davranışında, geyimində, başqalarına, o cümlədən, uşaqlara və yaşlılara münasibətində təzahür etməsi.

Bağça yaşlı uşaqların ədəb-ərkanlığa,mədəni davranış qaydalarına alışdırılması onlara düzgün əməl olunmasına yiyələnə bilmələri üçün tərbiyəçidən pedaqoji məharətin tələb olunması. Bağça uşaqlarına aşılanan davranış mədəniyyətinin ictimai yerlədə-küçə və meydançalarda, kinoteatr və konsert salonlarında, muzeylərdə, səyahətlərdə və gəzintilərdə nəzərə çarpması.

Məktəbəqədər yaşlı uşaqların səliqəliliyinə, geyiminin təmiz və ütülü olmasına diqqət yetirilməsinin vacibliyi (tərbiyəçilər uşaqları dönə-dönə başa salmalıdırlar ki, səliqəlilik və təmizlik insanın ən yaxşı bacarıqlarından biri sayılır).

Uşaqlarla söhbət zamanı tərbiyəçinin ona əvvəlcədən yaxşı məlum olan bir məsələ haqqında danışmasının daha

məqsədəuyğunluğu. Burada tərbiyəçinin sadə, səlis sözlər və cümlələrlə fikrini aydın şəkildə ifadə etməyə çalışması. Mədəni danışığın uşaqların ədəb-ərkanlıq ruhunda tərbiyəsinə müsbət təsir göstərməklə yanaşı, həm də təlim-tərbiyə işinin demokratikləşdirilməsinə və humanistləşdirilməsinə zəmin yaratmasının nəzərə alınması.

Məktəbəqədər yaş dövründə tərbiyəçilər tərəfindən uşaqlarla ədəb-ərkanlıq qaydalarının, davranış mədəniyyətinin sistemli, müntəzəm və məqsədyönlü aparılması özülün möhkəm olmasına səbəb olması.

Tərbiyəçilər çalışmalıdırlar ki, davranışlarında təsadüfən yol verilmiş qüsurlar uşaqların vərdişinə çevrilməsin, hərəkətinə yol tapmasın.

Əgər ədəb-ərkanlığı səciyyələndirən əlamətlərinimərifətlilik, nəzakətlilik, səliqəlilik, sadəlik, təvazökarlıq, qayğıkeşlik, mehribanlıq, diqqətcillik, şirindillilik və s. məktəbəqədər dövründən düzgün tərbiyə edilməsi sonrakı yaş dövrlərində bu sahədə aparılan işlərin daha əlverişli və möhkəm olmasına səbəb olması.

### Təbiətsevərliyin məktəbəqədər yaşlı uşaqlarda humanizm əhval-ruhiyyəsini formalaşdırması

Təbiətin hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşmasında rolu. Ana təbiətə bağlılıq, rəhmlilik, canıyananlılıq, qayğıkeşlik ruhunda tərbiyə olunmasının uşaqların humanist əhval-ruhiyyəsini formalaşdırması. Təbiətə məhəbbətlə bağlı məktəbəqədər yaşlı uşaqlarda humanizm keyfiyyətlərinin formalaşmasında bədii ədəbiyyat nümunələrində istifadənin əhəmiyyəti.

Bağçada gənc nəslə humanizm baxımından təbiətlə düzgün davranmaq, ondan istifadə qaydalarına ehtiyatla yanaşmaq, atmosferinə, fauna və florasına qayğı ilə yanaşmağın aşılanması.



Təbiət deyəndə ilk növbədə ətraf mühit-meşələrinin, bağların, yerin, göyün, torpağın, bütün kainatın gözlərimizin qarşısında canlanmasının nəzərdə tutulması.

Hərtərəfli inkişaf etmiş şəxsiyyətin yetişməsində onu əhatə edən təbiətin başlıca rol oynaması. Ekologiyanın yunan sözü olub, iki hissədən "eykos" ev, yurd, vətən və "loqos" elm anlamını ifadə etməsi. Elmi termin kimi ekologiya sözünü ilk dəfə 1868-ci ildə alınan bioloqu Ernest Hekkelin işlətməsi, sonralar isə təbiətşünaslıq sahəsində bir çox alimlərin ekologiyanı elm kimi inkişaf etdirilmələri. Canlı təbiətin və onun ayrı-ayrı ünsürləri ilə xarici aləmin qarşılıqlı münasibətlərini öyrənən elmin ekologiya adlandırılması. Uşaq bağçasında doğma təbiətə məhəbbəti necə aşılamalı? İlk növbədə uşaqların təbiətlə ünsiyyəti təşkil olunmasının vacibliyinin əməli işdə tərbiyəçilər tərəfindən nəzərə alınması. Bütün bunların uşaqlarda xeyirxahlığın, qayğıkeşliyin, vətənpərvərliyin, humanizm keyfiyyətlərinin yaranmasına təsir göstərməsi.

Bağçada uşaqların kollektiv şəkildə təbiəti müşahidə etmələri, onlarda həmdə demokratizm əhval-ruhiyyəsini dərinləşdirməyə səbəb olması. İnsanın insan kimi yetişməsində, formalaşmasında təbiətin, ətraf mühitin böyük rolunun alimlərin, həkimlərin, filosofların dönə-dönə qeyd etmələri.

Ətraf mühitin qorunması, doğma təbiətə qayğının əsil ümumxalq işi hesab olunması. Müasir dövrdə təbiətlə cəmiyyət arasındakı tarazlığın pozulmasının bəşəriyyəti daha çox narahat edən problemə çevrilməsi.

Atmosferin Bakı, Sumqayıt, Şirvanda, Gəncədə, Mingəçevirdə çirklənməsi, Xəzər dənizinin, Kür, Araz çayları sularının korlanması, faşist ermənilərin Araz və digər çaylara tökdükləri tullantılar, meşələrin qırılması və s. güclü ekoloji tədbirlərin həyata keçirilməsi məsələlərini ön plana çəkməsi. Bu mənada uşaq bağçası tərbiyəçisinin qarşısında daha məsul vəzifələrin durması və tərbiyəçilərin ekskursiyalarda uşaqları təbiətlə tanış etməyə çalışmaları. Mavi səma, sıx meşə, yaxud

parklar, yağış damcılarının büllur saflığı, tünd bənövşəyi buludlar,mavi səmada yaranan göy qurşağı, yaşıl xalı döşənmiş çöl-bütün bunların uşağın qəlbində dərin iz buraxması və onu həyəcana gətirməsi.

**Məktəbəqədər yaşlı uşaqlarda humanistləşdirmə və demokratikləşdirmə əhval-ruhiyyəsinin formalaşdırılmasında ətraf aləmlə tanışlığın əhəmiyyəti**

İnsanların təbiətə rəhimsizcəsinə müdaxiləsinin zərərli nəticələri və onun aradan qaldırılması yolları.

Kiçik yaşdan uşağın ana təbiətə bağlılıq, rəhmlilik, qayğıkeşlik ruhunda tərbiyə olunmasının mühüm əhəmiyyət kəsb etməsi. Görkəmli şair və yazıçılarımızın şerlərində təbiətin gözəlliyinin sonsuzluğu ilə əlaqədar məktəbəqədər tərbiyə müəssisələrində tərbiyəçilərin uşaqları ətraflı tanış etməsinə xüsusi səy göstərmələri.

Məktəbəqədər yaş dövründən uşaqların kiçik yaşdan təbiətə məftunluq, onun gözəlliyini qoruyub saxlamaq, ətraf mühiti-torpağı, suyu, atmosferi, bitki və heyvanlar aləmini, yeraltı və yerüstü sərvətləri, tarixi abidələri mühafizə etmək ruhunda tərbiyə etməyin gərəkliyinin gənc nəslin əxlaq tərbiyəsinin əsas vəzifələrindən biri hesab olunması.

Azərbaycanın əsrarəngiz təbiəti, uca dağları, meşələri, gölləri, çayları, bərəkətli torpağı bu əsərlərin məzmununun əsas motivini təşkil etməsi. Təbiətin həqiqətən hamı üçün ana qədər doğma və əziz hesab olunması.

Görkəmli estetik alim, nəğməkar şair Aslan Aslanovun aşağıdakı misralarına diqqət yetirək:

Bax dan yeri nə gözəldir,
Azərbaycan torpağında.
Bülbül ötür min naz ilə
Azərbaycan torpağında.

Təbiətə sonsuz məhəbbətin, ona qayğı hissi yaratmağın hər bir bağça tərbiyəçisinin şərəf işinə çevrilməsi. Çünki ətraf



aləmlə tanışlığın məktəbəqədər müəssisələrdə bağça yaşlı uşaqların humanizm əhval-ruhiyyəsinin formalaşmasında xüsusi rol oynamasına səbəb olması. Əsrarəngiz təbiət gözəlliyinə malik olan bu zəngin diyarımızın qədri-qiymətini bilməyin gərəkliliyi. İnsanların bəzən təbiətdə ekoloji tarazlığı pozmaları. Çayların, Xəzərin qoynuna axıdılan çirkab, məhv edilən yaşıllıqlar, qırılan meşələrin və s. təbiətin sinəsinə dağ vurması.

Bununla əlaqədar, görkəmli xalq şairimiz Bəxtiyar Vahabzadəninşerlərinin birində bu məsələni özünəməxsusluqla əks etdirməsi:

Anadır, deməli güclü torpaq,
Ondadır əlacı axı hər şeyin.
Gəlin-təbiətin özündən alaq,
Dava-dərmanın hər şikəstliyin.

Bu qəbildən olan poetik nümunələri bağça yaşlı uşaqlar demək olar ki, bir-iki dəfə tərbiyəçi müəllimin dilindən eşidərkən dərhal onların yaddaşlarına həkk olunur. Beləliklə, ətraf aləmlə tanışlığın, ana təbiət haqqında dəyərli poetik nümunələrlə tanışlığın tərbiyənin humanizm və demokratizm ruhunda qurulmasında tərbiyəçiyə dəstək verməsi.

**Mədəni davranış və intizamlılığın bağça yaşlı uşaqların humanizm və demokratizm ruhunda tərbiyəsində rolu**

Uşaqlarda mədəni davranış qaydalarını tərbiyə etmək üçün istifadə olunan faydalı üsullar. Mədəni davranış qaydalarının böyük qruplarda nisbətən mürəkkəb olması.

Uşaqlarda mədəni davranış təsəvvürlərini formalaşdırmaq üçün etik söhbətlərin, bədii əsərlərin, cizgi filmlərinin rolu. İntizam tərbiyəsində demokratizm və humanizm prinsiplərinin gözlənilməsi, fiziki cəzaya qətiyyən yol verilməməsi.

Ədəbin ağır və şəriət nəzərincə əməl ediləsi gözəl rəftarlardan biri olmaq cəhətdən intizam tərbiyəsində insanın davranış normalarını müəyyən etməsi. Ədəbin üstünlükləri

olan rəftarda gerçəkləşməsi. Hər bir uşağın mədəni davranışının və intizamlılığının onun tərbiyəçisindən asılılığı. Tərbiyəçinin üstünlüyünün başqalarına da yaxşı ədəb öyrətməsinə səbəb olması. Peyğəmbərimizin (c) tərbiyəçisi Allah-taala olduğundan davranışının da üstün olması: "Allah-taala öz peyğəmbərlərini üstün ədəbli etmişdir"

Allahın öz Peyğəmbərlərini, xüsusilə də Rəsulullahı(s) ən əqidəli, ən əxlaqlı, ən ədəbli qərar verməsi.

Həzrətin bütün səcdələrdə başqaları üçün nümunə olması. Bu mənada tərbiyəçilərin dini inanclardan da yeri gəldikcə istifadə etməmələrinin xüsusi əhəmiyyətə malik olması. Tərbiyəçilərin uşaqlarda mədəni davranışlarının stimullaşmasına xidmət edən ən yüksək mənəvi keyfiyyətlərin formalaşması üçün onlara aşağıdakı istiqamətdə mənəvi keyfiyyətlərin aşılamasının zəruriliyi:

1.Tərbiyəçilərin uşaqlara örnək xarakterli mənəvi keyfiyyətlərin planlı və mütəşəkkil şəkildə aşılanmasını təmin etmələri.

2.Tərbiyəçilərin uşaqlara ardıcıl olaraq nümunəvi davranışı, əxlaqi normalarla, milli-mənəvi dəyərlərimizlə səsləşən etnepedaqoji nümunələrin öyrədilməsini mümkün qədər ardıcıllıqla həyata keçirmələri.

3.Uşaqlara təlqin edilən və davranışla bağlı incəsənət əsərlərinin bədii yaradıcılıq nümunələri vasitəsilə öyrədilməsinin yollarının düzgün müəyyənləşdirilməsi.

Uşaqlarda mənəvi davranış qaydalarını tərbiyə etmək üçün aşağıda qeyd olunan üsullardan istifadə etməyin faydalılığı: inandırma, alışdırma, tərifləmə, nümunə göstərmə kimi vasitələrin bu sahədə çox müsbət nəticələr verməsi. Mədəni davranış qaydalarının böyük qruplarda nisbətən daha mürəkkəb olması: ayaq üstə təmkinlə dayanmaq, suallara təmkinlə cavab vermək, söhbəti axıra qədər səbirlə dinləmək və s.



## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Təhsil sisteminin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. "Azərbaycan məktəbi" jurnalı,№4, 2000.

2. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Təhsilin humanistləşdirilməsi yolu ilə yeni pedaqoji təfəkkürün inkişafı (Xüsusi buraxılış) Bakı-1999

3. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik Bakı-2006

4. Ağayev Ə. Ə.Heydər Əliyevin irsində vətəndaş tərbiyəsi məsələləri. "Azərbaycan məktəbi" jurnalı, №3, 2005

5. Ağayev Ə, Talıbov Y, Eminov A, İsayev İ. Pedaqogika. Bakı-2006

6. Abdullayev A. Məktəbin idarə edilməsinin demokratikləşdirilməsi. Bakı-1993

7. Abbasov A. Pedaqogika. Bakı-2002

8. Ağayev M., Nəzərov A. Qabaqcıl təcrübənin ünvanı. Bakı-2004

9. Bədəlova Ə. Azərbaycan xalq pedaqogikası. Bakı-2009

10.Bədəlova Ə. Qloballaşma şəraitində böyüməkdə olan nəslin milli özünüdərk tərbiyəsi. Bakı-2013

11. Əliyev R., Əhmədov N. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. Bakı-2004

12. Əmrahlı L. Məktəbəqədər yaşlı uşaqların intellektual hisslərin inkişaf etdirilməsinin forma və metodları. Bakı-2000

13.Əmrahlı L. Məktəbə psixoloji hazırlığın əsasları. Bakı-2008

14.Əfəndiyeva S., Cəfərova A. Uşaq bağçasında tərbiyə işinin təşkili, Bakı-1970

15. Əliyeva K. Uşaqlarda təbiətə məhəbbət tərbiyəsi. "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jurnalı, №-1, 1998

16. Göyşov Z. Əxlaqi sərvətlər. Bakı-1966
17. Heydər Əliyev və milli təhsil sistemi. "Azərbaycan Müəllimi" qəzeti, 1 iyul, 2005
18. Hüseynzadə R. Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi. Bakı-1997.
19. Hüseynzadə R. Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil vəpedaqoji fikir. Bakı-2007.
20. Həsənov A., Ağayev Ə. Pedaqogika. Bakı-2006.
21. Həsənov A. Məktəbəqədər pedaqogika. Bakı-2000.
22. Həsənov A. Kiçik yaşlı məktəblilərin mənəvi tərbiyəsi. Bakı-1987.
23. Həsənov A. Kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində Azərbaycan uşaqədəbiyyatından mənəvi dəyərlərdən istifadə pedaqoji qanunauyğunluqdur. Bakı-1996.
24. Həsənov M., Ağayev Ş. Məktəbəqədər yaşlı uşaqlarda oyun və əmək fəaliyyətinin təşkili. Bakı-2001.
25. Həşimov Ə., Sadıqov F. Azərbaycan xalq pedaqogikası. Bakı-2000
26. Həşimov Ə. Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə. Bakı-1991.
27. Xəlilov V. Ümumtəhsil məktəblərində estetikanın inkişaf yolları. Bakı-1991.
28. Xəlilov V. Məktəbli mədəniyyəti. Bakı-1999.
29. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. Dərslik. İki cilddə. Bakı-2013.
30. İsmixanov M. Pedaqogika (didaktika bölməsi) Bakı-1998.
31. Kazımov N. Tərbiyənin elmi pedaqoji əsasları. Bakı-1983.
32. Kərimov Y. Uşaq Bağçasında nitq inkişafı. Bakı-1985.
33. Kərimov Y. Qönçə. Bakı-1987.
34. Kərimov V. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafı metodikası. Bakı-2009



35. Qaralov Z. İdeologiya və mənəviyyat. Bakı-2008.
36. Qaralov Z. Tərbiyə (üç cildə) Bakı-2003.
37. Loginova V.İ., Samorukova P.Q. Məktəbəqədər pedaqogika. İki hissədə . Moskva-1988 (rus dilində).
38. Mehdizadə M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə işinin təkmilləşdirilməsi yolları. Bakı-1983.
39. Məmmədli İ. Fəzilət və qəbahət Bakı-2004.
40. Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlim proqramı. Bakı-1998.
41. Məmmədov M. Estetika haqqında söhbətlər. Bakı-1968.
42. Makarenko A.S., Seçilmiş pedaqoji əsərləri. Bakı - 1985
43. Mursaqulova R., Rüstəmova N. Məktəbəqədər pedaqogika. Bakı-2012.
44. Muradxanov M. redaktorluğu ilə: "Pedaqogika" dərsliyi. Bakı-1964.
45. Mənəviyyatın ekologiyası. Bakı-2005.
46. Mustafayev Q. İnsan və təbiət. Bakı-1976.
47. Nəzərov A., Məmmədov R. Pedaqoji ustalıq. Dərs vəsaiti. Bakı-2008
48. Nəzərov A. Müəllimin pedaqoji mərifəti. (Metodik tövsiyə) Bakı-1992.
49. Nəzərov A., Kərimova Z., Eminova G. Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı-2011.
50. Nəzərov A. Məktəbəqədər pedaqogika. Proqram. Bakı-2013
51. Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri. Dərs vəsaiti. Bakı-2011.
52. Nəzərov A. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. Bakı-2013
53. Nəzərov A., Mirzəyev C. Heydər Əliyev və gəncliyin mənəvi tərbiyəsi Bakı-2009.

54. Nəbiyev N., Vəliyev N. Təbii sərvətlər və ekoloji mühit. Bakı-1987
55. Podiasıy İ.P. Pedaqogika. Moskva-2007
56. Sadıqov F. Pedaqogika. Bakı-2006
57. Sadıqov F. Uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşması işinin elm-pedaqoji əsasları. Bakı-1994.
58. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı-1995.
59. Tusi N. Əxlaqi-Nasiri. Bakı-1989.
60. Talıbov Y. Milli müstəqillik siyasəti və tərbiyə işi. "Azərbaycan müəllimi" qəzeti, 14 avqust 1997
61. Talıbov Y. Pedaqoji ustalıq. "Azərbaycan müəllimi qəzeti". 14,19,21 may 1998.
62. Talıbov Y. Məktəblilərin milli mentalitet əsasında tərbiyə edilməsi. Bakı-2004.
63. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı-2009.
64. Uşaq bağçası (müdirlər üçün kitab) Bakı-1988.
65. Uşaq və ona qulluq. Bakı-1992.
66. Yeni əs in lideri. "Təhsil" nəşriyyatı. Bakı-2005.
67. İsmayılova N. Məktəbəqədər yaşlı uşaqların ailədə tərbiyəsi. Proqram. Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə bakalavr təhsil pilləsi üçün. Bakı-2013
68. İsmayılova N. Müstəqillik illərində Azərbaycanda ibtidai təhsilin inkişafı. Bakı-2013.
69. Cabbarov R. Təhsil müəssisələrinin idarə edilməsi məsələləri (I hissə), Bakı – 2009.
70. Həmzəyev M. Pedaqoji psiöologiya. Bakı – 1991.
71. İnsan hüquqları tədrisi (Müəllimlər üçün metodik vəsait), Bakı – 2003.
72. Qasımova L., Mahmudova R., Pedaqogika, Bakı – 2003.
73. Məmmədzadə R. Müəllimin pedaqoji etikası. Bakı – 1992.



74. Paşayev Ə., Rüstəmov, F. Pedaqogika (yeni kurs), Bakı – 2002.
75. Paşayev Ə., Dünya təhsil məkanı inteqrasiya və inkişaf yollarında. Bakı – 2005.
76. Əlizadə Ə. Müasir Azərbaycan təhsilinin psixoloji problemləri, Baki – 2000.
77. S.Əfəndiyev, A.Cəfərov. Uşaq bağçasında tərbiyə işinin təşkili. Bakı – 1970.
78. Q.İ.Şukinanın redaktorluğu ilə Məktəb pedaqogikası. Bakı – 1983.
79. B.Əhmədov, A.Rzayev.. Pedaqogikadan mühazirə konspektləri. Bakı – 1983.
80. B. , Spok. Uşaq və ona qulluq. Bakı – 1992.
81. N.N.Podyakova. Uşaq bağçasında sensor tərbiyə. Moskva – 1981 (rus dilində).
82. Axundova S. Azərbaycan uşaq oyunları. Bakı – 1980.
83. Vəliyev Z. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi. Bakı – 1993.
84. Məmmədov M. Estetika haqqında söhbətlər. Bakı – 1968.
85. Məmməd Cəfər. Estetik tərbiyə, ailə və məktəb. Bakı – 1967.
86. Məktəbəqədər pedaqogika. Moskva – 1988 (rus dilində).
87. Krupskaya N.K. Seçilmiş pedaqoji əsərləri. Bakı – 1983.
88. Muradxanov M. Məktəblilərin ailədə tərbiyəsi. Bakı – 1972.
89. Kərimov Y. Yenilik yollarında «İbtidai məktəb və məktəbəqədər tərbiyə», 2002, №1.

*Çapa imzalanmış 26 .01. 2015-ci il*
*Kağız formatı 60x84 1/16, çap vərəqi 2*
*Sifariş 13 sayı 200*

---

***ADPU-nun mətbəəsi***
***Bakı, Ü.Hacıbəyov küçəsi, 68***
***Tel: (+912) 493-74-10***
***E.mail. ADPU@Box.az***

Azf-282714